# Alim həmyerlimiz Rusiyanın yüksək dövlət mükafatına layiq görülüb

***Rusiyada yaşayan həmyerlimiz, tanınmış neftçi-alim, texnika elmləri doktoru Etibar Talıbovla bağlı bu günlərdə xoş xəbər eşitdik. Belə ki, o, Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin sərəncamı ilə II dərəcəli "Vətən qarşısında xidmətlərinə görə" ordeni ilə təltif edilmişdir.***



Etibar Talıbov hazırda "Qazprom" Şirkətlər Qrupunun "Yamburq Qaz Hasilatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin "Avtomatlaşdırma İdarəsi"nin aparıcı mühəndisidir. Qırx ildən çoxdur ki, Rusiyanın neft-qaz sənayesi müəssisələrində çalışır və avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi və istismarı sahəsində nüfuzlu mütəxəssislərdən biri sayılır.

Bir çoxları onu haqlı olaraq əfsanəvi neftçi, həmyerlimiz Fərman Salmanovun ən layiqli ardıcıllarından biri hesab edir. Etibar Talıbov bu barədə söz düşəndə tam səmimiyyətlə şəxsiyyətinə böyük hörmət etdiyi Fərman Salmanov zirvəsinə yüksəlməyin mümkünsüz olduğunu deyir. Lakin bunu da etiraf edir ki, o, hər zaman "böyük Fərman Salmanovun həmyerlisi" adını ləyaqətlə daşımağa çalışıb.

Etibar Talıbov 1957-ci il fevralın 3-də Azərbaycanın Lerik rayonunda yerləşən Çayrud kəndində anadan olmuşdur. 1964–1974-cü illərdə bu kənddəki orta məktəbdə təhsil almışdır. Kənd məktəbini əla qiymətlərlə bitirib elə həmin il Bakıdakı keçmiş Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun (hazırda Azərbaycan Texniki Universiteti) avtomatika və hesablama fakültəsinə daxil olmuşdur. 1979-cu ildə buranı elektronika mühəndisi ixtisası üzrə bitirmişdir.

Gənc mütəxəssisin ilk iş yeri Sumqayıt şəhərindəki "Neftqazavtomat" Elmi-Tədqiqat İstehsalat Birliyi olmuşdur. Birlik keçmiş SSRİ-nin neft və qaz sənayesinin çox sayda zavodları üçün atomatlaşdırılımış idarəetmə sistemlərinin istehsalı və tətbiqi üzrə ixtisaslaşdırılmışdı və bu sahədə ən qabaqcıl müəssisələrdən biri hesab olunurdu.

O illərdə "Neftqazavtomat" Elmi-Tədqiqat İstehsalat Birliyi tərəfindən hazırlanmış avtomatik idarəetmə sistemləri SSRİ Qaz Sənayesi Nazirliyinin bir çox istehsalat müəssisələrində, o cümlədən "Urenqoy Qaz İstehsalı" MMC-də (hazırda "Qazprom Urenqoy Hasilat" MMC adlanır) geniş istifadə edilirdi. "Neftqazavtomat"ın buraxdığı modern avadanlıqların orada tətbiqi və səmərəli istisamarına nəzarət etmək üçün Sibirdə perspektivli gənc mütəxəssislərə böyük ehtiyac vardı.

Məhz bu məqsədlə Etibar Talıbov gənc, bacarıqlı kadr kimi işləmək üçün Sumqayıtdan "Urenqoy Qaz İstehsalı" MMC-yə göndərildi. O, burada ilk gündən yüksək təşəbbüskarlığı və işgüzarlığı ilə fərqləndi, praktik istehsalat fəaliyyəti ilə məşğul olmaqla bərabər, eyni zamanda, elm sahəsində də ciddi tədqiqatlar apararaq, bir-birindən parlaq uğurlar əldə etdi.

Etibar Talıbov istehsalatdan ayrılmadan 1985-ci ildə "Neftqazavtomat" Elmi-Tədqiqat İstehsalat Birliyinin nəzdindəki qiyabi aspiranturaya daxil oldu və 1990-cı ildə "Neftqaz hasilatı obyektləri telekompleksələrinin idarəetmə məntəqəqələrinin informasiya mübadiləsi vasitələrinin səmərəliliyinin artırılması" mövzusunda namizədlik dissertasiyası yazaraq, uğurla müdafiə etdi və texniki elmər namizədi elmi dərəcəsini aldı.

Bundan sonra Etibar Talıbov yüksək ixtisaslı mütəxəssis kimi "Qazprom Yamburq Hasilat" müəssisəsinə yüksək vəzifəyə dəvət olundu. Lakin elmi-nəzəri fəaliyyətini bir an belə dayandırmadı. Belə ki, həmyerlimiz 2005-ci ildə Azərbacyan Milli Elmlər Akademiyasının Kibernetika İnstitutunda (hazırda İdarəetmə Sistemləri İnstitutu adlanır) Rusiyanın qütb ərazilərində təbii qaz yataqlarının istismarı zamanı çeşidli texnoloji prorseslərin idarəedilməsi sahəsində intellektual avtomatlaşdırılmış sistemlərin tətbiqi üzrə doktorluq dissertasiyası müdafiə etdi.

Qeyd edək ki, Etibar Talıbov neft və qaz sənayesi sahəsində 7 elmi kəşfin və 20-dən çox səmərələşdirici təklifin müəllifidir. Onun kəşf və səmərələşdirici təkliflərinin tətbiqi nəticəsində təkcə "Qazprom Yamburq Hasilat" müəssisəsi son bir neçə ildə 150 milyon Rusiya rublundan çox gəlir əldə etmişdir.

Həmyerlimiz Rusiyada təbii qazın kəşfi, hasilatı, nəqli və istismarı sahəsində ən yüksək texnologiyaların tətbiqini mənimsəmiş kreativ mütəxəssislərdən hesab olunur. O, bu sahədə çox sayda innovativ ideyaların və modern texnologiyaların tətbiqinə nail olmuşdur. Alimin 100-dən çox elmi əsəri Rusiya və dünyanın nüfuzlu elmi jurnallarında dərc olunmuşdur. Etibar Talıbov Rusiyanın şimal qütb ərazilərində avtomatlaşdırılmış iidarəetmə sistemlərinin tətbiqinin əhəmiyyəti ilə bağlı üç fundamental elmi monoqrafiyanın müəllifidir.

Hazırda görkəmli alim "Qazprom" şirkətlər qrupunun qaz emalı müəssisələrində qazın hasilatı, nəqli və emalı proseslərində optimal riyazi idarəetmə modellərinin tətbiqi üzrə geniş tədqiqat işləri aparır.

Etibar Tallıbov çalışdığı kollektivdə böyük hörmət və nüfuza malikdir. İş yoldaşları onu çox sadə, əməksevər və xeyirxah insan kimi tanıyırlar.

***M.HACIXANLI, "Xalq qəzeti"***